## RUHUN ŞAD OLSUN AY ATA

Qovdu günlər bir-birini,
Tərk eylədin sən elini.
Bilirəm yol dönməz yoldu,
Səndən üzməm heç əlimi.

Hər gün səni gəzir gözüm,
Qalmayıbdı daha dözüm.
Yatışına qurban özüm,
Səndən əlim necə üzüm.

Həsrətin çox üzür məni.
Axtarıram hər gün səni.
Dolanıram dörd çevrəni,
Bəlkə bir gün görüm səni.

Bu gün doqquz ayın oldu,
Dünyada xoş izin qaldı.
Həsrət məni yaraladı,
Atasizllq canım aldı.

Qalmayıbdı taqət-dözüm,
Nəmli olub Ata gözüm.
Ata sənsiz necə dözüm,
Sənə qurban olum özüm.

Günlər, aylar ötüb gedir,
Bağrım başın həsrət didir.
Ay ata sən köçüb getdin,
Sənsiz dünyam fəryad edir,

Sənsiz alışıb-yanıram.
Qəbristana yol salıram.
Məzarlığı dolanıram,
Mən atamı axtarıram.

Baş daşına sarılıram,
Atamın ətrini alıram,
Gecə-gündüz yalvarıram,
Dur gedək qurban oluram.

Yatdığın yer behişt olsun,
Qoy məzarın nurla dolsun.
Yerin olsun cənnət-məkan,
Ata ruhun qoy şad olsun.!

*03.03.2024*

## İTİRDİM ATAMI

İtirdim atamı mən yana-yana,
Ürəyim yaralı, batıb al qana.
Atamı gəzirəm baxıb hər yana,
Yolumu salmı şam mən qəbristana.

Atamın şəkili daşdan boyanır,
Baxdıqca ürəyim alışıb, yanır.
Sənin yoxluğuna heç kim inanmır,
Baş daşın görəndə qəlbim dayanır.

Qayıt gəl ay ata, qurbanın olum,
Bir kərə qolumu boynuna salım.
Ata icazə ver, yanında qalım.
Mən sənin iyini doyunca alım.

Qoy sönsün qəlbimin atəşi, odu,
Səninlə qazandım şərəfli adı,.
Mən səndən ay ata heç vaxt doymadım,
Vallah dünya yaman zalım dünyadı.

Övladı ataya həsrət qoyubdu,
Görən gözümü də deşib, oyundu.
Dərimi diricə didib, soyundu,
Atam gözlərimi yolda qoyubdu.

Aylar, illər keçər ata ağlaram,
Sənsiz dərya kimi coşub, çağlaram,
Sənin matəmini yüz il saxlaram,
Ata qara geyib, qara bağlaram.

*09.01204.*

## SƏN İDİN AY ATA, TAXTI-SULTANIM

Ata bu gün sənin köçdüyün gündü,
Ömrümün günəşi, işığı söndü.
Sən köçən gündən dünyam qaraldı,
Çərxi fələk sanki tərsinə döndü.

Aylar yaman qovur biri-birini.
Heç nə vermir Ata sənin yerini.
Artıq on ay oldu görmürəm səni,
Ovuda bilmirəm, heç ürəyimi.

Axtarır hər yanda səni gözlərim,
Düşübdü yollara dərin izlərim.
Ata sənsizliyə dözmür ürəyim,
Ayağım yer tutmur, əsir dizlərim.

Sən idin ay ata taxtı-sultanım,
Sənsiz boş qalıbdı, ata sol yanım.
Üstümə yüklənib dərdi dünyanın
Sənə qurban olsun ürəyim, canım.

*03.04.2024*

## ATA SƏNSİZƏM

On bir ay keşdi ay Ata sənsizəm,
Alıb ürəyimi çarəsiz dərd-qəm.
Ayları-günləri qovur həsrətim,
Dözməyir ürəyim, sənsiz ölürəm.

Baxıram hər yanda görünür yerin,
Yaman qəribsəyib vətənin-elin.
Gözümün önündə kitab rəflərin,
Mənə təsəllidi dəftər-qələmin.

Yığılmır yollardan ay Ata gözüm,
Taqətdən düşübdü, tutulub dizim.
Çıxmayır yadımdan söhbətin-sözün,
Qalıbdı dünyada dərin bir izin.

On bir aydı Ata sənsiz qalmışam,
Sənin ətrini mən yeldən almışam.
Bu on bir ayda mən çox qocalmışam,
Məzarlığa gedən bir yol salmışam

*03.05.2024*

* * *

Keçdi bu gün on bir ayın,
Qəm bağlayıb can sarayım.
Ata yaman sənsizlədim,
Xudaya çatmır harayım.

Üzü dönmüş fələyində,
Sözə baxmır ürəyimdə.
Can evimdən can sökülür,
Uçub damım-dirəyimdə.

## ATAMDAN DOYMAMIŞAM

Yaman kövrəlmişəm, yaman dolmuşam,
Elə bil həyatda tənha qalmışam.
Sanki qol-qanadı qırılmış quşam,
Atamdan hələdə mən doymamışam.

Uçdu xəyallarım bilmirəm hara,
Qəlbimə vuruldu dərin bir yara.
Atamı tapşırdım qara torpağa,
Qəhər məni boğdu, çəkildim dara.

Aldığım nəfəsim Atamla getdi,
Sevincim, şadlığım Atamla bitdi.
Atam bu dünyanı yaman tərk etdi,
Atasız həyatım lap sona yetdi.

Atam köçdü sındı qolum, qanadım,
Yetmədi Xudaya bircə fəryadım.
Daşlara yazıldı şərəfli adın,
Abidə olaraq, göyə ucaldın.

Atasız həyatım qəmdi-kədərdi,
Fələk qəm çələngin üstümə sərdi.
Atamı Allahım məndən tez aldı,
Qəlbimi yandırır Atamın dərdi.

Gözlərim yaşını içimə süzür,
Həsrətin ay Ata qəlbimi üzür.
Sənsiz ürəyim, dayanıb dözmür,
Hər yanda gözlərim hey səni gəzir.

*11.08.2023*

## AY ATA

Atalı günlərim düşüb yadıma,
Yenə də odlandım ata oduna.
Səni axtarıram, səni gəzirəm,
Sənsəz darıxıram, çat imdadıma.

Axtarır hər yerdə gözlərim səni,
Yoxluğun ay ata üzür qəlbimi.
Çəkərdim hər zaman özüm dərdini,
Qıymazdım yaralar incitsin səni.

Sənli günlərimi xatırladıqca,
Az qalır oynasın ağlım başımdan.
Sən qürur duyurdun, mən ucalıqda,
Yanımda olmusan körpə yaşımdan.

Sən idin ay ata arzum, amalım,
Ata sənin ətrini kimdən alım?
Sən idin baş tacım, dağım-vüqarım,
Sənsiz tükənibdi səbri-qərarım.

Sındırdın ay ata qol-qanadımı,
Fələk də duymadı heç fəryadımı.
Atasız yaşamaq zülümdü vallah,
Az qalır unudum sanki adımı.

*17.02.2024*

## ATA ISTƏYIRƏM

Ata istəyiəm görüşmək üçün,
Dərdimi-sərimi bölüşmək üçün.
Əl-ələ tutuşub gəzişmək üçün,
Ata istəyirəm görüşmək üçün.

Atalı günlərim düşüb yadıma,
Qurban olum Ata gözəl adına.
Tanrımda yetməyir heç imdadıma,
Ata istəyirəm görüşmək üçün.

Soruşub halımı, dərdimi bilsin,
Mənimlə danışıb, mənimlə gülsün.
Yenə də axşamlar evinə gəlsin,
Ata istəyirəm dörüşmək üçün.

Sevinci, kədəri onunla bölüm,
Bütün qayğısını öyrənim, bilim.
Atamla yaşayım, atamla ölüm,
Ata istəyirəm görüşmək üçün.

Atadır dünyanın şahı, sultanı,
Ata əvəz edən bir qüvvə hanı?
Dəyişib Atamın yeri, ünvanı,
Ata istəyirəm görüşmək üçün.

Gəlirəm görüşə Atam dinməyir,
Dinib-danışıram cavab verməyir.
Şəkil də üzümə baxıb gülməyir,
Ata istəyirəm görüşmək üçün.

*04.02.2024*

***Məlahət SAHİBQIZI***